# Tələbə qəbulunda rekord nəticə

**İsaxan İsaxanlı**

**Qəbul və tələbə şöbəsinin müdiri**

Bu il Xəzər Universitəsinə 495 plan yerinə 25 ixtisas üzrə qəbul aparılıb. Birinci qrup üzrə 6 ixtisasa (neft-qaz mühəndisliyi; kompüter mühəndisliyi; kompüter elmləri; inşaat mühəndisliyi; riyaziyyat və informatika müəllimliyi; elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi), ikinci qrup üzrə 8 ixtisasa (mühasibat uçotu və audit; maliyyə; iqtisadiyyat; menecment; marketinq; biznesin idarə edilməsi; tarix və coğrafiya müəllimliyi, regionşünaslıq), üçüncü qrup üzrə 9 ixtisasa (ingilis dili və ədəbiyyatı; ingilis dili müəllimliyi; tərcümə; Azərbaycan dili və ədəbiyyatı; Azərbaycan dili və ədəbiyyatı müəllimliyi; politologiya; jurnalistika; beynəlxalq münasibətlər; ibtidai sinif müəllimliyi); dördüncü qrup üzrə 2 ixtisasa (kimya və biologiya müəllimliyi; psixologiya) tələbə qəbul olunub.

495 plan yerindən 85-i birinci qrupa, 185-i ikinci qrupa, 170-i üçüncü qrupa, 55 yer isə dördüncü qrupa ayrılmışdı. Qəbul, məlum olduğu kimi, iki turda aparılır; birinci turda boş qalan yerlər üçün müsabiqə yolu ilə ikinci tur elan olunur. Universitəmizə birinci turda 414, ikinci turda isə 17 nəfər qəbul olunmuşdur. Qəbul olunmuş 431 tələbədən 383 nəfəri Azərbaycan bölməsinin, 48 nəfəri isə rus bölməsinin tələbələridir.

Qəbul imtahanlarında müəyyən bal həddindən yuxarı bal toplayan tələbələrə təhsil haqqının ödənilməsində güzəştlər barədə də məlumat vermək istəyirəm. Güzəştlər toplanmış ballara görə müxtəlifdir və Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının hər il qəbuldan əvvəl plan yerlərini dərc etdiyi "Abituriyent" jurnalında onlar dəqiq göstərilir. Bu güzəştləri belə müəyyənləşdirmişik: 500-549 arası bal toplayanlara 25% , 550-599 arası bal toplayanlara 50%, 600-649 arası bal toplayanlara 75% güzəşt olunur. 650-dən yuxarı bal toplayan tələbələr isə təhsil haqqını ödəməkdən 100% azaddır. Bu il 17 tələbəmiz 500-dən yuxarı bal toplayıb. Onlardan 7 nəfəri Mühəndislik və tətbiqi elmlər (1-ci qrup), 6 nəfəri İqtisadiyyat

və menecment (2-ci qrup) fakültəsinin, 4 nəfəri isə Humanitar və sosial elmlər fakültəsinin (3-cü qrup) tələbəsidir. Həmin tələbələrdən 8-i 600-dən çox balla qəbul olunub.

Qeyd edim ki, güzəştlər bütün təhsil müddəti ərzində tətbiq olunur. Lakin belə bir qayda da mövcuddur ki, güzəştə layiq görülən tələbələrdən kimsə təhsildə yaxşı nəticələr göstərməzsə, güzəştin ləğv olunması məsələsinə baxıla bilər. Universitəmizə qəbul olunan tələbələrə hər il payladığımız yaddaş kitabçasında bu barədə xəbərdarlıq edilir. Ancaq, adətən, yüksək balla qəbul olunan tələbələr təhsillərində yaxşı göstəricilərə nail olurlar.

Məlum olduğu kimi artıq 2-ci ildir ki, abituriyentlərə özəl ali məktəblərdə ödənişli təhsillə yanaşı dövlət sifarişi ilə təhsil almaq imkanı da verilir. Keçirilən qəbul imtahanlarının nəticələrinə görə bu tədris ilində 10 tələbəmiz dövlət sifarişi əsasında təhsil alacaqır, başqa sözlə, həmin tələbələrin təhsil haqqı dövlət hesabına ödəniləcək. Bunlardan 6-sı Mühəndislik və tətbiqi elmlər fakültəsinin, 4-ü Humanitar və social elmlər fakültəsinin tələbələridir.

Hər il sentyabrın 15-də universitəmizdə yeni tədris ilinin başlanması ilə əlaqədar açılış mərasimi keçirilir və yeni qəbul olunanlara tələbə bileti verilir. Bu il də 600-dən yuxarı balla qəbul olunanlara tələbə biletini Xəzər Universitəsinin təsisçisi və rektoru təqdim etdi.

Beləliklə, bu il universitəmizə 431 tələbə qəbul olmuşdur ki, bu da qalan illərlə müqayisədə ən yüksək rəqəmdir. Buna yaxın qəbul 2005-2006-cı tədris ilində olmuşdu. Həmin il universitəmizə 427 tələbə qəbul olunmuşdu.

Maraq üçün özəl ali məktəblərə tələbə qəbulunun TQDK tərəfindən aparıldığı 17 il ərzində Xəzər Universitəsinə ayrılan qəbul planı, qəbul olunanların sayı, qəbul olunan oğlan və qızların sayı, qəbul imtahanlarında 300-ə qədər, 300-400, 400-500, 500-600, 600-700 aralığında bal toplayanların sayını əks etdirən statistik rəqəmlər cədvəlini təqdim edirik:

| Tədris ili | Qəbul planı | Qəbul olanla-rın sayı | oğlan-ların sayı | qızların sayı | 300-ə qədər bal topla-yanlar | 300-400 aralığın da bal topla-yanlar | 400-500 aralığın da bal topla-yanlar | 500-600 aralığın da bal topla-yanlar | 600-700 aralığın da bal topla-yanlar |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2011-2012 | 495 | 431 | 202 | 229 | 213 | 169 | 32 | 9 | 8 |
| 2010-2011 | 495 | 301 | 159 | 142 | 128 | 105 | 44 | 20 | 4 |
| 2009-2010 | 495 | 218 | 110 | 108 | 148 | 58 | 4 | 4 | 4 |
| 2008-2009 | 295 | 281 | 156 | 125 | 61 | 171 | 37 | 9 | 3 |
| 2007-2008 | 295 | 277 | 152 | 125 | 79 | 145 | 44 | 7 | 2 |
| 2006-2007 | 305 | 258 | 142 | 116 | 87 | 124 | 35 | 10 | 2 |
| 2005-2006 | 445 | 427 | 225 | 202 | 167 | 214 | 33 | 7 | 6 |
| 2004-2005 | 395 | 184 | 114 | 70 | 118 | 51 | 9 | 4 | 2 |
| 2003-2004 | 265 | 79 | 54 | 25 | 70 | 8 | 1 | 0 | 0 |
| 2002-2003 | 300 | 9 | 4 | 5 | 6 | 1 | 0 | 0 | 2 |
| 2001-2002 | 245 | 60 | 27 | 33 | 29 | 25 | 5 | 1 | 0 |
| 2000-2001 | 375 | 96 | 61 | 35 | 71 | 25 | 0 | 0 | 0 |
| 1999-2000 | 360 | 168 | 86 | 82 | 144 | 20 | 1 | 3 | 0 |
| 1998-1999 | 495 | 197 | 109 | 88 | 186 | 9 | 0 | 2 | 0 |
| 1997-1998 | 340 | 48 | 19 | 29 | 44 | 4 | 0 | 0 | 0 |
| 1996-1997 | 395 | 15 | 5 | 10 | 14 | 1 | 0 | 0 | 0 |
| 1995-1996 | 395 | 54 | 32 | 22 | 41 | 12 | 1 | 0 | 0 |
| **Cəmi** | **6390** | **3103** | **1657** | **1446** | **1606** | **1142** | **246** | **76** | **33** |

Sonda universitəmizə yeni qəbul olunmuş tələbələri təbrik edir, onlara və digər tələbələrimizə təhsildə uğurlar arzulayıram.

***Mənbə:***

***Хязяр-Хябяр, (журнал) № 299, səh.16-17, Sentyabr, 2011, Xəzər universitəsi***